# Günəşin elçisi

■ Elçin İsgəndərzadə

**əvvəli ötən sayda**

Sonra da ayrılığa müqəddəs dedi

Sonra da özü tutdu ayrılığın əlindən. Qolboyun oldu, daha qorxmadı, sarıldı ayrılığa, oxxay, dedi.. Son ayrılıq!

Sevdi ayrılığı ...

Sevdi ayrılığı, ona görə ki, ayrılıq onun sevdiklərini sevmişdi, ayrılıq onun sevdiklərinə sarılmışdı və sevdikləri də ayrılığa qovuşmuşdu.

Əl-ələ verdi ayrılıqla...

Qov kimi ayrılığın əllərinə qondu.

Uçdu, uçdu...

Ayrılıqla uçdu, keçdi bu dünyadan.

* * *

Bir də uzaqların həsrətindəydi...

Həsrətini çəkirdi uzaqların.

Bilirdi ki, uzaqlarda nəsə var.

Nəsə könlünü ovudan, ürəyini toxdadan.

Nəsə var...

Ya da ki, hər şey var.

Ölümdən başqa hər şey.

Və itirdiklərinin hamısı da.

Ona görə də uzaqlara can atırdı.

Saatlarla gözlərini qıyıb dənizin üfüqlə birləşən nöqtəsinə baxırdı.

Sanki al yelkənli gəmi gələcək, onu həsrətində olduğu uzaqlara aparacaqdı.

Uzaqlar elə yaxınıydı ki, elə uzağıydı ki...

* * *

Bir filmiydi həyat, ömür, uşaqlıq, gənclik, qocalıq...

Ən uzun filmiydi.

Amma nə vaxtsa bitən film.

Nə vaxtsa da bitəcəkdi bu film.

Gözlərinin yaddaşında aparacaqdı öz filmini.

Əslində, hər kəsin öz filmi var və hərə öz filmini gözlərinin yaddaşında saxlayır, istədiyi vaxt öz filminə baxır xatirə adıyla.

Gah sevinir, gah kədərlənir, gah gülür, gah ağlayır.

Sonra da gözlərini qapayıb öz filmini də götürüb gedir.

Bir filmdi həyat...

Çəkdiyin, baxdığın, apardığın.

Ağrılı da olsa, kədərli də olsa gözəl filmdir, həyat filmi.

Bir həyat filmidir ömür.

Ömrün filmidir həyat.

* * *

Bütün fəsilləri sevirdi...

Yazı da, qışı da, yayı da.

Amma payızı bir başqa sevirdi.

Payızın kədərindəki gözəlliyi sevirdi.

Yarpaq tökümündəki mənzərəni sevirdi.

Payız havalarından dalğınlıqla keçirdi.

Şair kimi keçirdi, şeir kimi keçirdi.

Ömrün payızını həyatın payızıyla görüşdürürdü.

İki payızın qovuşuğunda yağışlara əl açırdı.

Ovuclarına isti yağışlar yağırdı, göz yaşları kimi.

Payızın göz yaşlarında islanırdı.

Payız kimi islanırdı.

Və payızlardan keçirdi.

* * *

Xatirə yelləyirdi beşik kimi...

İllərin xatirəsini, ömrün xatirəsini, olanların xatirəsini.

Xatirələr uyuyurdu o beşikdə.

O da xatirələrin anasıydı, şair anası.

Və xatirələri köçürürdü vərəqlərə.

Hər sətirdə bir xatirə dilə gəlirdi.

Bir xatirə gülür, bir xatirə ağlayırdı.

Xatirələr bir ömürüydü.

Yazırdı, yazırdı, bitmirdi...

Amma bir sonu varıydı hər şeyin.

O sona doğru gedirdi. Hər şeyin sonuna.

O sondan başqa xatirələr başlayacaqdı.

Bilmədiyi, görmədiyi, ağlına gətirə bilmədiyi.

O başqa dünyanın xatirələri olacaqdı.

Başqa, gözəl bir aləmin.

Hələ ki, xatirə yelləyirdi beşikdə...

Sonra beşik də xatirə olacaqdı. Xatirə beşiyi.

Və küləklər yelləyəcəkdi o beşiyi.

* * *

Ədəbiyyat işığında yandırırdı ömrünü...

Mənim dünyam. Dünyam həp qılınclayar riyanı, yalanı, ədalətsizliyi, pisliyi, saxtakar, tamahkar insanları. Mənim ətrafımda elə adamlar ola bilməz, deyirdi.

Sanki alaq otları kimi bütün pisləri və pislikləri yan-yörəsindən təmizləmişdi.

Və ürəyi böyük idi, böyük ürəkli adamları da sevirdi.

Ürəyini yandırırdı sevdiklərinin yolunda.

Qədrini bilin böyük ürəklərin, məşəl ürəklərin, deyirdi.

Ədəbiyyat işığında Günəşin elçisiydi.

* * *

Atlıydı, atı varıydı, qamçısı varıydı...

Atını buludların üstüylə çapırdı, xəyallarda çapırdı, uzaqlara çapırdı.

Atı da gözəliydi, özü də gözəliydi, yolu da gözəliydi.

Bir gün baxdı ki, atı yoxdur. Bir gün baxdı ki, atsızdır.

* * *

Sevgi nəğməsiydi dünya, aləm, ömür...

Bir sevgi nəğməsi oxuyurdu dünyaya.

Bəlkə də, dünyanın özü də sevgi nəğməsiydi.

Bəlkə də, hər şey sevgi nəğməsiydi.

Elə Günəş də, Ay da, Gecələr də.

Hər şey sevginin üzərində bərqərar olmuşdu.

Və bəşər bu nizamı pozmaqdaydı, silməkdydi.

Onun bütün savaşı, döyüşü o nizamı pozanlara, dağıdanlaraydı.

Ömrü boyu şeirləriylə savaşdı.

Sevgi naminə, haqq naminə, ədalət naminə savaşdı.

Yaxşı, gözəl nə varıydısa, hamısı sevgiydi, onun aləmində.

Sevgi nəğməsiydi ömür, tale, şeirlər...

* * *

Deyir ki, uşaqlıqda bir göyərçinim var idi. Açıq göy boynu, bir az tünd göy rəng qanadları və döşünün altının ağıyla başqa göyərçinlərdən seçilirdi. Onu o qədər çox sevirdim ki, bir gün onsuz dura bilmirdim. Məni görən kimi uçub çiynimə qonar, başını üzümə söykəyərdi. Çox qəribə bir qoxusu varıydı, bənövşənin uzaqdan gələn rayihəsini xatırladırdı. Saatlarla Bubbunun, yəni göyərçinimin o zərif qoxusunu ciyərlərimə çəkərdim. O qədər qoxulayardım ki, axırda anam zarafatla deyərdi ki,

- Qızım, yazıq quşun qoxusu qalmadı. Bütün qoxularını içinə çəkib bitirdin.

Mən də inanardım, tez quşumu havaya buraxardım ki, gedib qoxu toplasın özünə. Quşum da havalanar, göylərə yüksələr, sonra da ən uca ənginliklərdən yenə üzərimə şığıyardı. Quşumu burnuma yaxınlaşdırıb qoxulayanda, görərdim ki, həmin qoxusudur, o uzaq bənövşə qoxusu. Sevinclə qışqırardım:

- Ay ana, Bubbunun qoxusu getməyib, yenə də o qoxusundadır.

Anam da gülərdi, guya o da sevinərdi,

- Hə, lap yaxşı, amma az qoxula yazıq quşu. Birdən gözlərini yumub elə dəlicəsinə iyləyirsən ki, onda özünün də xəbərin olmadan yazıq quşu bərk-bərk sıxırsan əllərində. Vallah, elə anlarda Bubbu ölər e.

Hər gün onunla danışırdım, söhbət edirdim. O da mənimlə. Nəsə quş dilində qığıldayırdı, amma anlamırdım.

Bax, o zaman xəyallar qurur, nağıllar aləminə gedir, quş dili öyrənir, sonra da Bubbu ilə danışırdım.

Bubbulu xoşbəxt günlərim uzun sürmədi. Günlərin birində göyərçinim çiynimə qondu, saçlarımı qarışdırdı, əllərimi dimdiklədi, məni qoxuladı və birdən göylərə uçdu, uçdu və bir daha geri qayıtmadı.

Bir saat keçdi, quşum gəlmədi, iki saat ötdü, yenə gəlmədi. Saatlar bir-birini qovdu, axşam düşdü, yenə gəlmədi və mən pəncərənin ağzında ağlaya-ağlaya qaldım. Qaranlıqlara baxıb, "Bubbu, Bubbu" deyə-deyə hönkürürdüm.

Anam sakitləşdirsə də, sakitləşə bilmirdim, Bubbumu, göyboyun quşumu istəyirdim. Havada bir quş görən kimi göyə hoppanır, Bubbu deyə çağırırdım.

Beləcə günlər ötdü, Bubbu itiklərə qarışdı, gedənlər kimi həyatımdan yox oldu, itdi, amma Bubbulu həsrət balaca ürəyimi qana döndərdi.

Günəşli dualarımın sonunda Bubbunun qayıtması üçün də dualar edirdim.

Amma Bubbu heç zaman geri dönmədi.

* * *

Deyir, aşağı siniflərdə oxuyurdum. Məktəbə gedən yolun üstündə ağacların arasında kiçik kafe kimi bir yer varıydı. Söyüd ağacları salxımlananda dayanıb bu gözəlliyi xeyli süzərdim. Bir dəfə belə seyretmələrin birində baxdım ki, kafedə işləyən kök xala bir qara pişiyin boğazından tutub deyinir:

- Axır ki, oğrunu tutdum, mən də deyirəm bu əti, toyuğu oğurlayan kimdir? Lənətə gələsən qara pişik, indi sənə göstərəcəm.

Ordakı hasarın arxasına çəkilib oğrunca qadının pişiyə neyləyəcəyini güdməyə başladım.

Qadın əlindəki iplə pişiyin dörd ayağını bir yerdə bağladı, sonra budaqların ən sıx, yamyaşıl görünməz yerindən pişiyi ayaqlarından asdı.

- Daha burdan səni heç kim xilas etməyəcək. Qal burda gəbər.

Mən də baxır və gözümdən sel kimi yaş axıdırdım. Yazıq, çarəsiz oğru pişiyin halına ağlayırdım.

Elə ki, qadın pişiyi asıb içəri getdi və öz işinə başı qarışdı, xəlvətcə kafenin bağçasına keçdim və pişiyi xilas etmək istədim, amma zalım qadın o qədər düyün vurmuşdu ki, ha əlləşdim, düyünləri açə bilmədim. Məni görmələrindən qorxaraq, ilk ağlıma gələn şeyi etdim. Söyüdün nazik budağından necə sallaşdımsa, budaq qırılıb pişik qarışıq əlimə gəldi və pişik bağlanmış budağı götürüb ildırım sürətiylə ordan qaçıb uzaqlaşdım.

Adamların gözündən iraq bir yerdə oturub, pişiyin düyünlərini açıb azadlığa buraxdım. Azad olan pişik miyoldayıb gözdən itdi. Mən də sevinirdim, sevinirdim ki, pişiyi ağacda asılı qalıb ölməkdən xilas etdim. Öz gözümdə qəhrəman kimiydim.

Sonra həmin kafenin yanından ötəndə, həmin zalım qadını gördüm. Qırılan budağın yanında dayanıb yenə də söyənirdi,

- Pişikdə fərasətə bir bax, budağı qırıb qaçıb. Bu dəfə də tutsam boğazından asacam.

Həmin gün məndən xoşbəxti yoxuydu yer üzündə.

Zarafat deyil, bir canlını ölümdən qurtarmışdım. Çox sevinirdim, çox!

* * *

Günəşlə dolu misralar...

Sətirləri Günəşdən içdi, sözləri Günəşdən gəldi, Günəşdən yazdı, Günəşə dualar elədi.

Günəşli şeirlər süzüldü ürəyindən.

Bəlkə də, Günəş oldu özü də.

Hardasa, bilmədiyimiz bir yerdə, bir məkanda Günəşdi indi.

* * *

Xatirələr yeri-göyü tutmur bəzən.

Xatırlayırsan, xatırlayırsan, gah gülürsən, gah ağlayırsan.

Görüşlərimizdə həmişə xatirələrindən danışardı.

Deyir, biz yaşadığımız küçənin aşağısında, məktəb yolunun üstündə bir qoca kişi tum satırdı. Bir gözü koruydu, bir əli iflic. Balaca kətilin üstündə oturar, qara torbadakı tumu satıb qurtarana kimi evinə getməzdi. Axırda o torbanı tərs çevirib çırpar, beş qəpiklik və on qəpiklik balaca stəkanları torbaya qoyub, qoltuğuna vurar, əyilə-əyilə evinə gedərdi.

Hər dəfə ordan keçəndə konserva qutusunun içinə yığdığı qəpiklərin içinə ya beş qəpik, ya on qəpik atardım. Mənə ev-dən verilən xərclik pulundan o qoca tumsatana kömək edirdim uşaq xəyalımda. Amma o qəpiyi qəpik qutusuna elə atardım ki, qoca bilməzdi heç vaxt, çünki qutu gözünün görməyən tərəfindəydi.

Bu, bir neçə il beləcə davam elədi.

Sonra qoca tumsatan öldü və tindəki yeri boş qaldı.

Və mən o qədər adət eləmişdim ki, hər gün ya beş qəpiyi, ya da on qəpiyi həmin boş qalmış yerə atırdım ki, kimsə, bir kasıb adam tapıb götürsün.

Bu onun uşaq mərhəmətinin, ailədən gələn bir insaf tərbiyəsi, bir ədalət meyarı idi öz aləmində.

* * *

Bir dəfə də həyətdə uşaqlarla oynayarkən gördüm ki, bir qoca nənədi, yarıqat olub çənəsi az qala yerə dəyir. İki əlində də həsir zənbil varıydı. Yazıq qarı zənbilləri güc-bəlayla aparırdı, sanki bu saat yıxılıb zənbillərin altında qalacaqdı. Düşünmədən yaxınlaşıb nənənin zənbilinin birini əlindən aldım, ağır da olsa zorla nənənin getdiyi yerə qədər apardım. Yazıq arvad mənə o qədər dua elədi ki, o qədər dua elədi ki, geriyə qayıdanda duaları qulaqlarımda səslənirdi.

O gün olanları anama danışanda, anam həyəcanlandı və bu həyəcanda bir az da tələş gördüm. Anam dedi ki:

- Qoca adamlara kömək eləmə demirəm, amma evdən, küçədən çox uzaqlaşma, həm də hər adama yaxınlaşma, bilmək olmur kim kimdi.

Sonra mənə çox qorxulu hekayələr danışdı uşaq oğruları haqqında.

Sonra da dəfələrlə uşaq oğurluğu, uşaq oğruları haqqında eşitdik, duyduq, amma mən yenə də qocalara kömək edirdim bacardıqca. Yəni mənim qəhrəmanlığım qorxu-hürkü bilmirdi, əgər kiməsə kömək lazım olurdusa, heç nə düşünmədən əlimdən gələni edirdim. Yazıq anam da tələşə düşürdü, xasiyyətimi bilirdilər deyə məndən ötrü qorxurdular da. Bilirdilər ki, bildiyimi yaxşı mənada eləyən uşağam.

Hələ bir dəfə də ən sevdiyim donumu dilənçinin yanındakı balaca qızına vermişdim. Sonra gəzməyə gedəndə anam mənə geyindirmək üçün o donu axtaranda utana-utana demişdim ki, o donu dilənçiyə vermişəm.

Bütün bu uşaq hərəkətlərinə baxmayaraq, heç vaxt, heç vaxt ondan ailəsinə zərər gəlmədi.

Həmişə haqqında xoş sözlər, gözəl dualar eşitdilər.

* * *

Həyatı çox sevirdi, insanları, təbiəti, ədaləti, göyü, yeri, Günəşi...

Bir də ən çox mərhəməti və mərhəmətliləri sevirdi. Gözünün işığı da olsa mərhəmətsiz adamdan uzaq durardı.

Qapısına diləyə gələni boş qaytarmaz, çiçəyi oxşayar, ağacı əzizləyər, hətta tanımadığı adamların dərdlərinə şərik çıxıb, nə ilə kömək etmək istəyərdi.

İnsafın, mürvətin yoxsa, heç kimsən, deyərdi.

Hamını da mərhəmətli olmağa çağırardı,

- Dünya heç kimə qalmayacaq, tələsin ey insanlar, insan olmağa tələsin. Yoxsa sonra gec olar.

Gec olmaq qorxusu içinə dolardı.

Vaxtında dada yetişmək, əldən tutmaq, bacardığını etmək istəyərdi insanlara.

İndi o qədər insan tanıyıram ki, Nurəngiz xanımın kömək etdiyi, əlindən tutduğu, yıxılanda qaldırdığı.

İndi o qədər insan tanıyıram hər gün Nurəngiz xanıma mərhəmətinə görə rəhmət oxuyan.

Və bilirəm ki, hamının arxasından, bu dünyadan köçəndən sonra bu qədər rəhmət oxuyan olmur.

Rəhməti də qazanmaq gərək.

Nurəngiz xanım bu rəhməti sağlığında qazanmış mərhəmətli insanlardan idi.

**Ardı var**